

# Fəzilə İbrahim qızı Səmədova
## (1929–2020)

Görkəmli kimyaçı alim, əməkdar elm xadimi, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Neft-Kimya Prosesləri İnstitutunun (NKPİ) laboratoriya rəhbəri, AMEA-nın müxbir üzvü Fəzilə İbrahim qızı Səmədova 90 yaşında vəfat etmişdir.

Fəzilə İbrahim qızı Səmədova 1929-cu il mart ayının 29-da Şamaxı şəhərində ziyalı ailəsində anadan olub. 1946-cı ildə Bakı şəhər 132 nömrəli məktəbi qızıl medalla bitirib, həmin il M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) kimya-texnologiya fakültəsinə qəbul olub. O, 1952-ci ilin dekabrına qədər Yeni Bakı Neftayırma Zavodunda mühəndis vəzifəsində çalışıb, sonra Azərbaycan Sənaye İnstitutunun Neftin kimyası və texnologiyası kafedrasına aspiranturaya qəbul edilib, 1954-cü ilin aprel ayında isə M.Qubkin adına Moskva Neft İnstitutunun Yağların və sürtkülərin texnologiyası kafedrasına aspirant kimi keçirilib.

1956-cı ildə "Yağların kimyəvi tərkibinin onların istismar xassələrinə təsiri" mövzusunda dissertasiya işini müdafiə edərək texnika elmləri namizədi elmi dərəcəsini alıb. Daha sonra Azərbaycan Sənaye İnstitutunun Neft kimyası və texnologiyası kafedrasında assistent, dosent və kafedranın professoru vəzifələrində çalışıb. Alim 1960–1981-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutunun Yağların kimyası və texnologiyası laboratoriyasında böyük elmi işçi vəzifəsində işləyib. O, 1982–1988-ci illərdə Azərbaycan Sənaye İnstitutunda ixtisas fənnindən dərs deyib, aspirantların elmi rəhbəri olub. 1986-cı ildən ömrünün sonuna qədər isə NKPİ-nin Neftlərin tədqiqi və yağların texnologiyası laboratoriyasına rəhbərlik edib.

Onun bütün elmi fəaliyyəti neft və neftayırma sənayelərinin işi ilə sıx əlaqədə olub. O, Azərbaycan neftlərinin tərkib və xassələrinin öyrənilməsi, onlardan yüksək keyfiyyətli baza yağlarının alınması üçün yüksək iqtisadi səmərəli texnoloji proseslərin işlənib hazırlanması ilə məşğul olub. Alimin və eləcə də yaratdığı məktəbin tədqiqat işlərinin nəticəsi respublikada neft ehtiyatının hesablanmasında, neftlərin çeşidlənməsi, nəqli və emalında istifadə edilərək bu sahələrin inkişafına kömək edib.

F.İ. Səmədova Bakı neft emalı zavodlarında bir sıra böyük elmi və təcrübi əhəmiyyətli tədqiqatlar apararaq baza yağlarının xammal mənbəyinin genişləndirilməsi, keyfiyyətinin yaxşılaşdırılması və istehsal texnologiyasının təkmilləşdirilməsinə həsr edilmiş problemə aid tədqiqat işlərinə rəhbərlik edib və onların tətbiqinə nail olub. Onun rəhbərliyi ilə aparılan tədqiqatların nəticəsində müəyyən edilib ki, Azərbaycanın yeni yataqlarından çıxarılan parafinli neftlər öz xassələrinə görə köhnə yataqlardan çıxarılan parafinli neftlərə yaxın olub, yüksək stabilliyə malik müxtəlif çeşidli baza yağları almaq üçün qiymətli xammaldır. İlk dəfə F.İ. Səmədovanın həmkarları ilə birlikdə apardığı tədqiqatlar nəticəsində göstərilib ki, Bakı Neftayırma Zavodunda qalıq yağların istehsalının artırılması, ağır neft qalıqlarının ikipilləli deasfaltizasiya prosesinin tətbiqi ilə əldə edilə bilər. Bu prosesin Azərbaycan neftlərinin qalıqlarının emalı üçün daha səmərəli olması da sübut edilib. Eyni zamanda tədqiqatların nəticəsi göstərib ki, fasiləsiz adsorbsiya və hidrokrekinq prosesləri də Azərbaycan neftlərindən baza yağları almaq üçün səmərəlidir. F.İ. Səmədovanın rəhbərliyi ilə vazelinlərin (tibbi və texniki) müxtəlif üsullarla fərqlənən xammaldan alınma texnologiyası işlənib hazırlanıb və patentləşdirilib.

1960–1973-cü illərdə aparılan tədqiqatların nəticəsi alimin "Bakı parafinli neftlərindən yüksək iqtisadi səmərəli texnologiyalarla distillat və qalıq yağlarının alınmasının tədqiqi və Azərbaycanda istehsalı perspektivləri" mövzusunda dissertasiya işində əksini tapıb və o, müvəffəqiyyətlə müdafiə edərək texnika elmləri doktoru elmi dərəcəsini alıb. 1987-ci ildə ona "Neftin və qazın texnologiyası" ixtisası üzrə professor elmi adı verilib. 1995-ci ildə Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, 2001-ci ildə isə AMEA-nın müxbir üzvü seçilib.

F.İ. Səmədovanın elmi-tədqiqat işlərinin nəticəsi 530 elmi əsərdə, o cümlədən 24 monoqrafiya, 1 publisistik kitab, 64 müəllif şəhadətnaməsi və patentdə öz əksini tapıb. Onun rəhbərliyi ilə 4 elmlər, 20 fəlsəfə doktoru hazırlanıb.

Fəzilə Səmədova "Azərbaycan neft təsərrüfatı" və "Neft kimyası və neft emalı prosesləri" jurnallarının redaksiya heyətinin, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti yanında yaradılmış Neft emalı üzrə Elmi-Texniki Şuranın, Beynəlxalq Biznes Klubun Ekspert Şurasının üzvü olub.

F.İ. Səmədova neftin tərkib və xassələrinin öyrənilməsi, onlardan yüksək keyfiyyətli baza yağlarının alınması istiqamətində apardığı tədqiqatları ilə Azərbaycanda və Müstəqil Dövlətlər Birliyi ilə yanaşı, digər ölkələrdə də tanınan alim idi.

Elmi və pedaqoji fəaliyyətinə görə, Fəzilə Səmədova 1991-ci ildə Azərbaycanın əməkdar elm xadimi və "Avropanın fəxri alimi" adlarına layiq görülmüş, "Şöhrət" ordeni, "Aleksandr Humbolt" adına medalla təltif edilmişdir.

AMEA-nın müxbir üzvü Fəzilə İbrahim qızı Səmədova 2020-ci il yanvar ayının 1-də vəfat edib.

Görkəmli alimin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin**

**"Azərbaycan neft təsərrüfatı" jurnalının**
**redaksiya heyəti və kollektivi**